The Interview Times.

Buraxılış No.5 May, 2022 Pulsuz

# Fariz Ismailzade




> “...Prorektor olaraq, yarı vaxtımı təhsil işlərinə, yarı vaxtımı isə diplomatiyaya həsr edirəm. Seçimə gəldikdə isə, daha çox həvəsim diplomatiyayadır.”

## Biography

*Hazırda ADA Universitetində Dövlət, Xarici Əlaqələr və Tələbə işləri üzrə Prorektor vəzifəsini, eyni zamanda universitet daxilində yeni yaradılmış Diplomatiya və İnkişaf İnstitunun Direktoru vəzifəsini icra edir. Bakalavr təhsilini Qərbi Kaspi Universitetində, 1-ci magistr dərəcəsini ABŞ-da Vaşinqton Universitetində, 2-ci magistr dərəcəsini (EMBA) İspaniyada IE Biznes Məktəbində, doktorantura dərəcəsini isə Niderlandda Maastrixt Menecment Məktəbində almışdır. Bu günədək 5 kitab və 300-dən çox məqalənin müəllifi, eyni zamanda “Baku Dialogues” jurnalının redaktorudur. O, AR-nın Prezidentinin 18 Aprel 2016-ci il Sərəncamına əsasən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının üzvü təyin edilmiş, 9 iyul 2019-cu il tarixli Sərəncamına əsasən AR-nın diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətinə görə isə “Tərəqqi” medalı ilə təltif edilmişdir. 16 ildir ki, ADA Ailəsinin üzvüdür. Evlidir və 2 övladı var.*

**ADA-da oxuduğum müddətdə mənim cəmi 1 fənndən kəsrim olub, o da sizin tədris etdiyiniz dərsdən. “Final work” olaraq 30 faizlik bir inşa tapşırmışdınız və həmin period ADA-da Tələbə Hökümətində Prezident seçkiləri dönəminə təsadüf etdiyindən sizin qoyduğunuz “deadline”-ı ötürmüşdüm. Ancaq “deadline”-ın üstündən 4 gün keçməsinə baxmayaraq, bir gecə oturdum səhər saat 5-ə kimi inşanı yazıb sizə göndərdim. Ancaq göndərdiyim inşanı qəbul etmədiniz. Və mən kəsildim. Bu sual həmişə mənim ağlımda qalmışdı: niyə görə o zaman həmin inşanı qəbul etmədiniz?**

İlk öncə demək istəyərdim ki, sən bizim universitetimizin aktiv tələbələrindən olmusan, 3 il ərzində Class Prezident olmusan, çoxlu həm yerli, həm də beynəlxalq layihələr keçirtmisən və universitetin sosial həyatında aktiv rol oynamısan. Lakin, sənin sosial həyatda fəallığın həyatda sənə üstünlük verirsə, səni güclü kadra çevirirsə də, ancaq səni digər tələbələrdən akademik tələblərdən heç də ayırmır. Məsələn, sən mənim gözümdə aktiv bir tələbəsən, amma, dərs tələblərinə gələndə sən hamı kimi eynisən. Bizim universitetimizin qaydası var, bütün tələbələr tədris proqramında yazılan şərtlərə riayət etməlidir. Bəzi tələbələr əziyyət çəkib gecə-gündüz oxuyur və tapşırıqları vaxtında təqdim edir, bəziləri isə Class Prezident olaraq fikirləşirlər ki, tapşırığı 4 gün gec təqdim edə bilərlər, bu düzgün və ədalətli alınmır. Əlavə olaraq, gecikməmək prinsipi tələbələrə peşəkarlıq bacarığı öyrədir ki, gələcəkdə həmin insan iş yerində də tapşırıqları və hesabatları gecikmədən təqdim etsin. Ona görə sən dörd gün gecikəndə mən sənin qiymətini kəsmişəm. Qeyd etmək istərdim ki, mən də tələbə olarkən həm aktiv, həm də əlaçı tələbələrdən idim, və cəmi bir müəllim mənim qiymətimi dörd yazmışdı. Həmin müəllimə Gülşən Paşayeva idi, politoloq, və artıq 25 ildir ki, mən məzunam və Gülşən xanım ilə bu günə kimi çox gözəl münasibətlərimiz var.

**Mən bu barədə həm eşitmişəm, həm də özüm şahidi olmuşam ki, dəfələrlə sizi ADA tələbələri ilə səhv salıblar. Bir dəfəsində İtali-**

ya səfərimizdən qayıtdıqdan sonra bizi AzTV-yə səhər verilişinə qonaq qismində dəvət etmişdilər və həmin zaman biz 4 nəfər tələbə idik və bir də universitet adından siz iştirak edirdiniz. Yadımdadır ki, biz içəri binaya girən kimi bizdən haradan gəldiyimizi soruşdular və dərhal studiyaya xəbər ötürdülər ki, bəs "ADA-dan 5 nəfər tələbə gəlib, xeyr yanlarında Prorektorları yoxdur". Açığı bu hadisə həmin an üçün çox pozitiv bir abu-hava yaratmışdı və bu da eyni zamanda bizim həyəcanımızı canlı yayım zamanı qismən almışdı. Başqa hansı bu kimi hallar ilə qarşılaşmısınız?**

Bəli, belə hadisələr baş verirdi. Məsələn, hansısa tədbirə gedib ADA Universitetdən gəldiyimi söyləyəndə, məndən neçənci kurs tələbəsi olduğumu soruşublar. İndi artıq belə hallar olmur, mənim saçım artıq ağarıb.

**Azərbaycanın ABŞ-dakı səfirliyində ilk təcrübəçi siz olmusunuz. Necə olduki bu məhz sizə qismət oldu?**

Həmin vaxt mən mübadilə proqramı ilə Amerikada təhsil alırdım və mənim, təbii ki diplomatik işə həvəsim var idi. Mən bizim səfirliyimizə müraciət etdim və o zaman Səfir, hal hazırda isə bizim Rektor, Hafiz Paşayev, demişdi ki, mən gəlib yayda çalışım və nəticə yaxşı olsa, səfirlik stajor proqramını davam edəcək və hər il mübadilə proqramı ilə gələn tələbələri seçib işə cəlb edəcək. Məsələn, mən əsasən mətbuatı tərcümə edib səfirliyə təqdim edirdim. Həmin təcrübə mənim üçün çox böyük bir məsuliyyət idi, mən o zaman səfirlikdə elə insanlar ilə işləmişəm ki, onlar sonradan hərəsi bir səfir statusu alıb, məsələn, Elin Süleymanov (Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfiri), Tahir Tağızadə (Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Fövqəladə və səlahiyyətli sabiq səfiri), Elmar Məmmədyarov (Azərbaycan Respublikasının sabiq Xarici İşlər naziri). Çox gözəl komanda var idi və biz çoxlu tədbirlərə, görüşlərə gedirdik və təcrübə yığırdıq. Qeyd etmək istərdim ki, bugünə kimi həmin komanda ilə çox gözəl münasibətlərimiz var. ADA-ya gəlməyimin də əsas səbəbi elə həmin illərdə səfirlikdə Hafiz müəllim ilə tanış olub işləməyim idi və sonradan məni universitetdə işləməyə dəvət etmişdir.

**Orta məktəb sinif yoldaşınız hazırda Azərbaycanın ABŞ-da səlahiyyətli səfiridir, siz isə ADA kimi bir universitetin Prorektorusunuz. Lənkəranda təhsil bu qədərmi güclüdür?**

Ümumiyyətlə götürsək, hər bir regionda çox güclü məktəblər və tələbələr olur və bu yəqin ki, həyatın belə bir qanunudur. Hər hansı bir məkandan seçilmiş insanlar çıxır. Bizim rayonlarımıza baxsanız, hərəsindən məşhur insanlar, tanınmış ziyalılar çıxır. Bizim Lənkəranda məktəbimiz, 4 nömrəli məktəb, demək olar ki, şəhərin mərkəzi məktəbi idi. Orada çoxlu yüksək səviyyəli müəllimlər çalışırdı və ingilis dili orada çox güclü tədris olunurdu. Məktəbdə aldığımız bilik bizə gələcəkdə çox böyük kömək etdi və rol oynadı, mən gələcəkdə Amerikada təhsilimi davam elədim, Xəzər isə bizim məşhur diplomatik xidmət işçilərindən biridir. 4 nömrəli məktəbin nailiyyətlərini qeyd eləmək lazımdır. Əlavə olaraq qeyd eləmək istəyərdim ki, biz 90-cı illərdə oxumuşuq və həmin vaxt Azərbaycan yeni müstəqil olmuşdu və bizim daxilimizdə belə bir həvəs var idi ki, biz yaxşı oxuyaq, yaxşı kadrlara çevrilək və ölkəmizi xaricdə təmsil və təbliğ edək. Bəlkə də, 90-ci illərin çətin dövrü bizim təhsilimizə təsir edib və nəticədə biz istədiyimizə nail olmuşuq. Onu da qeyd edim ki, mən Amerikada sonuncu dəfə olanda biz Xəzər ilə birlikdə Rod-Aylend ştatının 6 universitetində görüş və mühazirələr keçirtdik və orada Azərbaycanı təqdim elədik. Çox gözəl bir təcrübə oldu, bizə 90-ci illəri xatırlatdı və bizim istədiyimiz arzuların indi reallaşdığını göstərdi.

**Özünüzü daha çox təhsil sahəsinin əməkdaşı kimi görürsünüz, yoxsa diplomatiya?**

Bizim universitetimizin rolu Azərbaycan təhsilində çox unikaldır. ADA adi universitet deyil, bizim bir ayağımız təhsil sahəsində, digər ayağımız isə diplomatiyə sahəsindədir. Elə ona görə, mən özümü də eyni bu cür görürəm. Talehimiz belə gətirib ki, biz 15 ildir xüsusi bir universitet yaratmışıq və ADA-nın bir qolu təhsil sahəsinə gedir. Təhsil Nazirliyi ilə çoxlu işlərimiz və layihələrimiz var, eyni zamanda isə biz, Xarici İşlər Nazirliyinin nəznindəyik və ona görə diplomatiya ilə bağlı da çoxlu işlər görürük. Mən də Prorektor olaraq, yarı vaxtımı təhsil işlərinə, yarı vaxtımı isə diplomatiyaya həsr edirəm. Seçimə gəldikdə isə, daha çox həvəsim diplomatiyadadır, çünki mən Beynəlxalq Münasibətləri bitirmişəm, və ADA-da beynəlxalq işlər üzrə prorektoram. Ona görə mən işimin daha çox diqqətini beynəlxalq əlaqələrə yönəldirəm.

**Yadımdadır, mən ADA-ya yeni qəbul olmuşdum və bir gün kafeteriyaya daxil oldum və öz sevimli yerimdə əyləşdim. Məndən öncə isə yaxınlıqda siz, Hafiz müəllim və Xarici İşlər Naziri müavini Araz Əzimov əyləşmişdiniz və aranızda çox ciddi söhbət gedirdi. Az bir zaman sonra birdən Araz müəllim mənə sarı qayıtdı ki, "bəs sən bura gəlmisən ki, bizim söhbətimizə qulaq asasan və səsyazma edəsən". Əlbəttə ki, belə bir fikrim yox idi, ancaq yeni tələbə olduğum üçün həyəcanlandım və dərhal əynimi götürüb oradan çıxdım. Ancaq yanınızdan keçərkən Araz müəllimə dedim ki, "Mən bugünki söhbətdən özümə nəticə çıxardacam və bir daha bunu təkrarlamayacam". Həmin an siz dərhal qayıtdınız ki, "bəs biz ADA-da tələbələrə yalnız sinif daxilində yox, eyni zamanda sinifdən kənar da təcrübə qazanmağı tövsiyə edirik". Həqiqətənmi ADA fəlsəfəsinin əsasında tələbələrə sinif daxili ilə yanaşı sinifdən kənar da təcrübə və bilik qazanmaq önəmli yer tutur?**

Mən də həmin situasiyanı xatırlayıram, və deyə bilərəm ki, bizdə pandemiya dövründə tələbələr evdə qaldılar, dərslər onlayn rejimində keçirilirdi. Nəticədə, biz görürdük ki, təhsildə çox böyük bir fərq var. Tələbələr dərslərin məzmununu onlayn formatda da oxuya bilərlər, lakin, onlar universitetə gələrkən, dostları və müəllimləri ilə ünsiyyət qurarkən və universitetin tədbirlərində iştirak edərkən nə qədər inkişaf və tərbiyə alırlar. Dərsdən kənar fəaliyyət və kommunikasiya çox vacibdir və o, tələbələrin dünya görünüşü dəyişir. Biz bu fərqi keçən il çox hiss elədik və ona görə istəyirik ki, əyani dərslər tam bərpa olsun, çünki tələbə ADA-ya gələrkən onun yetişməsi üçün vacib olan başqa bir dəyərlər də qazanır və mühit onları formalaşdırır.

**"US-educated Azerbaijani Alumni Association"-un yaradıcısınız. Necə olduki belə bir təşkilat yaratmaq fikri sizdə formalaşdı?**

O zaman Amerikadan məzun olan tələbələr qayıdanda belə bir fikir yaranmışdı ki, assosiasiya yaradılsın. Bildiyimə görə bu cür assosiasiyalar 90-ci illərdə də yaradılmışdır, lakin fəaliyyətləri uzun müddət çəkmədi. 2003-cü ildə mən və dostlarım "Amerikada təhsil almış Azərbaycanlı Məzunlar Assosiasiyası"nı yaratdıq, Ədliyyə Nazirliyində qeydiyyatdan keçirdik. Çox maraqlı layihələr, təhsil proqramları, görüşlər və konfranslar keçirilmişdir. Nizamnaməyə əsasən hər



iki ildən bir seçki olurdu və hər bir məzun öz namizədliyini ortaya qoya və sədr seçilə bilərdi. Təşkilatın bütün qeydiyyat işlərini könüllü olaraq öz üzərimə götürmüşdüm və sədr seçilmişdim. Lakin, QHT-



nin uzun müddətli sədrinin olması və onun adının təşkilatın adı ilə bağlı hallanması problemini nəzərə alaraq, mən 2007-ci ildə sədrlikdən çıxdım. Bizim fikrimiz sədrlərin rotasiya olunması və gənc sədrlər tərəfindən təşkilatın inkişaf etdirilməsi idi. Səhv etmirəmsə, hal hazırda 6-cı və ya 7-ci sədr rotasiya ilə dəyişir və təşkilat aktiv fəaliyyət göstərir.

**Dərslərinizin birində demişdiniz ki, keçəcəyiniz dərsin mövzusuna hazırlaşmaq üçün gecə saat 3-də yuxudan durub məqalələr oxuyursunuz. Fariz müəllim bu qədər çox funksional olmağı necə bacarır? Çünki həmin dövrdə siz bir neçə təşkilati işlərlə yanaşı ADA-da Prorektor vəzifəsini icra edirdiniz və eyni zamanda da EMBA təhsili alırdınız. Digər tərəfdən də, ailəlisiniz və 2 övladınız var.**

Əlbəttə, bu çətindir. Saat 9-dan 6-ya kimi işdə olub, sonra axşamlar dərs oxumaq, vaxtı ilə MBA, sonra isə doktorantura oxumuşam və müdafiə etmişəm. Amma, insan öz gününü düzgün planlaşdıranda bu mümkündür.

**Yadımdadır bir dəfə görüşlərimizin birində, o zaman mən Student Governmentin Prezidenti idim, mənə qayıdıb demişdiniz ki: "İstəyirəm sən Heydər Əliyev kimi bir Prezident olasan, Obama kimi yox!". Heydər Əliyevi dünya miqyasında bu qədər dahi edən əsas xüsusiyyəti nə idi?**

Heydər Əliyev çox məsuliyyətli və xarizmatik bir insan olub. O, gördüyü işi sevib və Azərbaycana rəhbərlik elədiyi dövrlərdə və Sovet İttifaqında rəhbər vəzifələrdə olarkən çalışdığı hər bir məqamda yüksək peşəkarlıq göstərib. Əlbəttə ki, Obama da çox maraqlı bir şəxsiyyətdir, amma o Prezident olanda, bəzən hansısa məqamlarda zəiflik göstərib, xüsusilə də son illərində. Ona görə mən hesab edirəm ki, sizin kimi gənclər tələbə cəmiyyətində Prezident, tələbə klublarında rəhbər olanda, onlar öz işini sevməli, ona məsuliyyətli yanaşmalı və peşəkarlıq görsətməlidir. Məhz bu mövzuda Ulu Öndərdən öyrəniləsi çox məqamlar var.

**ADA-da bir çox ölkələrin rəsmi nümayəndələrini qarşılamısınız və əksər hallarda da həmin şəxslərin çıxışlarının şəxsən siz özünüz moderatorluğunu etmisiniz. Sizə görə bugünədək ADA-ya səfər edən ən əzəmətli 3 qonaq kim olub? O mənada ki, siz onları qarşılayarkən daxilən həyəcan və narahatçılıq keçirmisiniz.**

Bizim Universitetə çoxlu xarici qonaqlar, keçmiş prezidentlər, indiki liderlər, baş nazirlər, hətta, beynəlxalq təşkilatların rəhbərləri tez-tez gəlib çıxış edirlər. Ümumiyyətlə, mən xarici qonaqlar ilə ünsiyyəti və onlar ilə mühazirələrin təşkil olunmasını çox sevirəm. Amma, ən çox həyəcan öz Prezidentimiz Universitetə gələndə keçirirəm. 2018-ci ildə bizdə məzun günü olmuşdur və mən həmin tədbirin aparıcısı idim və çox həyəcanlı idim. Əlavə olaraq, həmin gün çox küləkli bir hava idi və o qədər həyəcanlı idim ki, özüm də bilmədim o tədbiri necə aparmışdım. Eləcə də, keçən il bir beynəlxalq konfransımız var idi və Cənab Prezident orada çıxış elədi. Mən o tədbirdə heç çıxış da eləmirdim, amma, insan həyəcanlı olur belə məsuliyyətli işdə.

**Yadımdadır bir dəfə sənəd imzalayarkən mənə demişdiniz ki, ananız sizə həmişə deyərdi ki, imza atdığınız hər sənədin bəhrəsini, qazancını görəsiniz. Və inanıram ki, ananızın bu arzusu artıq gerçəyə dönüb, çünki artıq imzanız bir çox səlahiyyətlərə malikdir. Ananızın başqa nə kimi arzuları var sizinlə bağlı?**

Birincisi onu deyim ki, anam rəhmətə gedib. Hər bir ananın arzuları eyni olur, istəyir ki onun övladı savadlı, uğurlu və sağlam olsun, yaxşı karyera qursun. Burda məncə bütün anaların arzuları eynidir və mənim anamın başqa bir xüsusi arzusu olmayıb.

*Sualları hazırladı və müsahibəni götürdü:*

*El Presidente*

*İdeya müəllifi: El Presidente*
*Dizayner: Nathan Kamanga*
*Redaktor: Fidan Namazova*
*Copywriter: Fərida Eyvazova*
*Fullstack developer: Anar Bayramov*
*Vergi məsləhətçisi: Suğra Əsgərova*
*PR komandası: Alejandra Garcia Duran*
*Nərmin Zeynallı*







# Biznesiniz üçün ehtiyac duyduğunuz hər şey

Biz sizin biznesinizin inkişafı üçün məkan təqdim edirik.

*COLAB. Port Baku Residence*
*151 Neftchilar ave.*
*Crossing of Uzeyir Hajibeyli street*
*+994 50 2780072*
*welcome@colab.az*

Məkanlarımız şəhərin mərkəzində, Port Bakuda görüşlər, təqdimatlar, tədbirlər və digər iş ehtiyacları üçün kreativ və düşünülmüş zallardır, burada komanda ilə işləmək, görüş keçirtmək, vacib məsələlərə diqqət yetirmək və hətta işlərə ara verib istirahət etmək üçün şəraitimiz mövcuddur. Ən əsası isə siz əmin ola bilərsiniz ki, gündəlik qayğılarınız güvənli əllərdədir.

Statistika göstərir ki, kovorkinq məkanlarında çalışan insanlar ənənəvi ofis mühitlərindəki insanlardan 74% daha məhsuldar və 70% daha sağlamdırlar.

**COLAB.-IN ÜSTÜNLÜKLƏRİ.**

**Mobil Kabinet.** Güclü akustik izolasiyaya sahib telefon danışıqları və görüşlər üçün nəzərdə tutulmuş kabinlər yenidən qurulmaqda olan iş mühitinin qüsursuz şəkildə işləməsinin həyati əhəmiyyətli vacib hissəsidir. Howorthdan Framery qabaqcıl və aparıcı səssizlik kabinləri yüksək keyfiyyətli səssiz zonalar təmin etməklə məmnuniyyət və səmərəliliyi artırır.

**Görüş otaqları.** Demək olar ki, heç bir iş üzbəüz əlaqə yaranmadan edilə bilməz. COLAB. görüş otaqları həmkarlarınız, komanda üzvləriniz və müştərilərinizlə görüşləriniz üçün rahatlıq və tam təchizatlı məkanlar təqdim edir.

**Yüksək sürətli internet.** İşlərinizi məhsuldarlığını artırmaq üçün yüksək sürətli internetimizə qoşularaq təmin edə bilərsiniz.




Mənim adım Nərmin Babayevadır. Ada Universitetinin Riyaziyyat fakültəsinin ilk tələbələrindən biriyəm. Gəncə şəhəri 16 nömrəli tam orta məktəbi bitirmişəm. Məktəb vaxtından riyaziyyat fənni üzrə təhsilimi davam etdirməyi düşünürdüm və qərarımdan əmin idim. Nəticədə Ada Universitetinin yeni açılmış riyaziyyat fakültəsini seçdim. Hazırlıq mərhələsini oxumamaq üçün İELTS və SAT imtahanlarına hazırlaşdım. İngilis dili səviyyəm o qədər də yaxşı deyildi və bunun üçün çox çalışmalı idim. 7 aylıq hazırlıqlarımın nəticəsində xəyalını qurduğum fakültəyə və universitetə qəbul oldum. Artıq, mən də ADA universitetinin tələbələri arasındayam. İnanıram ki, mənə verilən təhsillə gələcəkdə həm universitetimi, həm də ölkəmi layiqincə təmsil edə biləcəm.